# XX əsrin ən böyük faciəsi

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində «Xocalı soyqırımı XX əsrin ən böyük faciəsi» mövzusunda tədbir keçirilmişdir. Tədbirdən öncə Xocalı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Mərkəzin direktoru Eyvaz Kazımov çıxış edərək ermənilərin işğalçılıq siyasəti, zaman-zaman azərbaycanlılara qarşı törətdikləri terror və soyqırımı aktları barədə ətraflı məlumat vermişdir.

Sonra mərkəzin GÇH rəhbəri İlham Əfəndiyev «Xocalı soyqırımı XX əsrin ən böyük faciəsidir» mövzusunda məruzə ilə çıxış etdi. O bildirdi ki,1992- ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq normalarına zidd olaraq keçmiş Sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıçı alayının şəxsi heyətinin dəstəyi ilə Xocalı şəhərinə hücum edərək azərbaycanlılara qarşı soyqırımı törətmişlər. Bir neçə saat ərzində 613 soydaşımızı, o cümlədən 106 qadın, 63 uşaq və 70 qocanı xüsusi amansızlıqla qətlə yetirmişlər.

Tədris Mərkəzinin psixoloqu Vüsalə Aslanova öz çıxışında qeyd etdi ki, o zaman erməni quldurları tərəfindən Xocalıda xalqımıza qarşı törədilən soyqırımı barədə dünya ictimaiyyətinə məlumat verilməmiş, faciənin əsl mahiyyətinə aydınlıq gətirilməmişdir. Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidi və tələbi ilə müstəqil Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqdan sonra Xocalı faciəsi kimi qanlı hadisələrin qarşısına sipər çəkilmişdir. Ulu öndərimizin təşəbbüsü ilə faciəyə siyasi-hüquqi qiymət verilmiş, ümummilli liderin imzaladığı fərmana uyğun olaraq hər il fevralın 26 -sı Xocalı soyqırımı günü kimi qeyd olunur. V. Aslanova onu da qeyd etdi ki, dünyaya demokratiya dərsi verən bir çox ölkələr Xocalı soyqırımına biganə qalırlar, amma bir gün bu səhvi başa düşəcəklər.

Mərkəzin fiziki tərbiyə rəhbəri C. Babayev Xocalı soyqırımını dünya ictimaiyyətinə çatdırmaq üçün respublikamızda böyük işlər görüldüyünü, ölkəmizdə və xaricdə çoxlu tədbirlərin, anım mərasimlərinin, foto-sərgilərin keçirildiyini vurğuladı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev başda olmaqla Azərbaycan xalqı belə hesab edir ki, Xocalı soyqırımı unudulmamalı, dünya birliyi tərəfindən beynəlxalq hüquqi qiymətini almalıdır. Faciənin ideoloqları, təşkilatçıları və icraçıları yaxalanaraq layiq olduqları cəzalara çatdırılmalıdır.

İnanırıq ki, aparılan məqsədyönlü tədbirlər nəticəsində Xocalıda törədilmiş soyqırımı aktı beynəlxalq ictimaiyyət tərəfindən qəbul ediləcəkdir.

Mərkəzdə təhsil alan şagirdlərdən Həzi Cabbarov, Sona Nazimli, Xəyal Ağadadaşov, Vüsalə Yasinzadə tədbirdə iştirak edən gənclər adından bildirdilər ki, onlar da hər bir azərbaycanlı kimi bu soyqırımı hadisəsini pisləyir və Xocalı şəhidlərinin xatirəsini daim əziz tuturlar. Gənclər bildirdilər ki, biz Azərbaycan gəncləri vətənə məhəbbət, düşmənə nifrət hissi ilə böyüyür, ölkəmizin inkişafında, Azərbaycanın bütövlüyü uğrunda, işğal olunmuş torpaqlarımızın geri qaytarılmasında respublikamızın uğurlarının artırılmasında öz qüvvə və səylərimizi əsirgəməyəcəyik.

**Ş. SÜLEYMANOV.**

# Nahaq qan yerdə qalmaz

Xocalı faciəsi ən dəhşətli soyqırımlarından biri kimi Azərbaycan xalqının qan yaddaşına yazılmışdır. Bu dəhşətli qırğın daim Azərbaycan torpaqlarına göz dikən ermənilərin xəstə təfəkküründən doğan və niyyətlərinə çatmaq məqsədilə xalqımıza qarşı yeritdikləri məkrli siyasətin daha bir qanlı səhifəsidir.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə ermənilər və keçmiş sovet imperiyasının Dağlıq Qarabağdakı 366-cı alayının əsgərləri aylarla mühasirədə olan Xocalı şəhərinə hücuma keçmişlər. Hücum zamanı çoxlu sayda müasir silahlardan və tanklardan istifadə edən düşmən qarşısında əliyalın əhali davam gətirə bilməmişdir. Bundan istifadə edən ermənilərlə birləşən əlahiddə ordunun əsgərləri yüzlərlə soydaşımızı qətlə yetirmişlər. Günahsız insanların bir hissəsi canını qurtarmaq üçün gecənin qaranlığında dağlara, meşələrə qaçmışlar. Lakin azğın düşmən həmin soydaşlarımızın çoxunu qətlə yetirmişdir. O gecə düşmən Xocalı şəhərini bütünlüklə yandırmışdır. Ermənilərin sovet əsgərləri ilə birləşərək xalqımıza qarşı törətdiyi bu soyqırımı ən böyük dəhşətlərdən biridir.

Faciə baş verdikdən sonra da mərkəzi hakimiyyət uğrunda mübarizə dayanmamış, əksinə bu fürsətdən istifadə edənlər Azərbaycanda hakimiyyət dəyişikliyi prosesinə başlamışlar. Rəhbər şəxslər Xocalı faciəsinə biganə yanaşır, dəhşətli, dözümsüz vəziyyətə düşən xocalılılara dövlət tərəfindən hər hansı bir köməklik edilmir, faciəyə siyasi-hüquqi qiymət verilməsi istiqamətində heç bir əməli fəaliyyət göstərilmirdi.

Məhz ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra bir çox problemlərimiz kimi Xocalı soyqırımına da dövlət səviyyəsində münasibət bildirildi. Ulu öndərimizin rəhbərliyi altında bu faciəyə düzgün siyasi-hüquqi qiymət verildi, faciənin səbəbkarları və iştirakçıları aydın şəkildə göstərildi.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Xocalı hadisəsi Milli Məclisdə müzakirə olundu. Ölkə Prezidentinin sərəncamı ilə 26 fevral Xocalı Faciəsi Günü elan edildi.

Eyni zamanda Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanını imzaladı və fərmanla bir daha faciəyə dəqiq siyasi qiymət verildi, günahkarlar göstərildi.

Ümummilli liderimiz Heydər Əliyevin şah əsəri olan müasir Azərbaycan dövlətinin inkişaf strategiyasını uğurla həyata keçirən ölkə Prezidenti cənab İlham Əliyev də hakimiyyətə gəldiyi ilk gündən beynəlxalq miqyasda Xocalı faciəsinin birmənalı şəkildə soyqırım aktı kimi tanınması üçün əlindən gələni edir. Məhz bu fəaliyyətin nəticəsidir ki, bu gün bir çox dövlətlərin parlamentləri ermənilərin insanlığa qarşı törətdiyi amansız qətliamı-Xocalı faciəsini azərbaycanlılara qarşı soyqırımı hadisəsi kimi qəbul edirlər. 51 ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının Parlament İttifaqı, Pakistan İslam Respublikası və Meksika parlamentləri Xocalı soyqırımı kimi tanıyıblar.

Prezident İlham Əliyevin, "...Düşünürəm ki, müstəqil, güclü və demokratik Azərbaycan dövlətinin mövcudluğu və getdikcə inkişaf etməsi Xocalı şəhidlərinin ruhuna təsəlli ola bilər", fikirləri və bu amalın uğurla reallaşması istiqamətindəki ardıcıl və qətiyyətli fəaliyyəti qeyd etdiyimiz fikiri bir daha təsdiq etmiş olur.

Ulu öndərimiz Heydər Əliyevin səsləndirdiyi "Nahaq qan yerdə qalmır. Xocalı müsibətinin də beynəlxalq aləmdə öz qiymətini alacağı və günahkarların gec-tez öz layiqli cəzalarına çatacağı təbiidir", müdrik sözləri bütün azərbaycanlılar üçün bir mayak rolunu oynayır, gələcəyə sonsuz ümid və inam yaradır.

**Brilyant MƏLİKOVA,**
**Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşı.**

# Soyqırım günü anıldı

Vəndam qəsəbə 1 saylı tam orta məktəbdə Xocalı faciəsinin 21-ci ildönmü münasibəti ilə əlaqədar tədbir keçirildi. Tədbiri giriş sözü ilə məktəbin direktoru Qənimət Abbasova açdı. Sonra Dövlət himni səsləndi. Tarix müəllimi Teymur Qarayev geniş məruzə etdi. Şəhid valideynləri R. Qəribov, P. Sadıqov çıxış etdilər. Xalqımızı bu müsibətlərə düçar edənlər lənətləndirildilər. Sonra isə məktəbin müəllimləri V.Səlimova, S. Əzizova və mədəniyyət evinin işçisi E. Salehovun hazırladığı ədəbi-bədii kompazisiya ilə mərasim sona satdı.

Axırda şəhidlərin xatirəsini əks etdirən kompleks önünə əklillər qoyuldu.

**Azər AZAYEV,**
**Vəndam qəsəbə mədəniyyət evinin direktoru.**

# Doğma ölkəmizdə

## 2012-ci ildə ölkədə 117 min iş yeri açılıb

Ölkədə məşğulluq problemi, yoxsulluğun minimuma enməsi başlıca məsələlərdən biridir. Bu sahədə qarşıya qoyulmuş vəzifələr ildən-ilə icra olunur. Təkcə ötən il ölkədə 117 min yeni iş yeri açılmışdır. Onlardan 93 mini daimi iş yeridir. Bu istiqamətdə dövlət proqramının əvvəlindən bəri 1 milyon 200 min yeni iş yeri açılmışdır.

2012-ci ildə işsizliyin səviyyəsi aşağı düşmüş və 5,2 faiz səviyyəsində olmuşdur. Bununla bağlı yoxsulluğun da səviyyəsi 7,6 faizdən 6 faizə enmişdir.

Respublikada bu ilin əvvəlindən iqtisadi fəal əhalinin sayı 4 milyon 684,4 min nəfər olub. Onlardan 4 milyon 445,3 min nəfərini iqtisadi əmək fəaliyyəti ilə məşğul olan əhali təşkil edir.

## Kreditlərin çoxunu özəl banklar verib

Mərkəzi Bankın təqdimatına görə Dövlət Statistika Komitəsindən verilən məlumata görə 2012-ci ilin 1 dekabr vəziyyətinə ölkənin bank-kredit təşkilatları tərəfindən 12 milyard manat həcmində kreditlər verilib. Kreditlərin 33,2 faizi dövlət, 64,1 faizi özəl bankların, 2,7 faizi isə bank olmayan kredit təşkilatlarının payına düşüb.

Uzunmüddətli kreditlər 70,5 faiz təşkil edib. Ödənilmə vaxtı keçən kreditlər 6,3 faiz olub.

## Ay ərzində hər kəs ərzağa və qeyri-ərzaq mallarına nə qədər pul xərcləyir?

Ötən il Azərbaycanın pərakəndə ticarət şəbəkəsində ərzaq məhsullarının satışı 2,1 faiz artaraq 9 milyard 728 milyon, qeyri-ərzaq malların həcmi isə 20,7 faiz artaraq 7 milyard 831 milyon manata bərabər olub. Dövlət Statistika Komitəsi məlumat verir ki, hər bir ölkə sakini ötən il ticarət şəbəkələrindən orta hesabla ayda 87,8 manatlıq ərzaq, 70,7 manatlıq qeyri-ərzaq malları almışdır.

**Topladı:**
**Nadir ATAKİŞİYEV.**